# «Gömrük və gənc nəsil» mövzusunda tədbir keçirilmişdir

***Yevlax Gömrük İdarəsinin əməkdaşları tərəfindən "Gömrük və gənc nəsil" mövzusunda keçirilən növbəti silsilə tədbir yanvar ayının 11-də Qəbələ şəhər 5 nömrəli tam orta məktəbində təşkil olunub.***



Azərbaycan Respublikasında gömrük xidmətinin yaradılmasının 25 illik yubileyilə bağlı təşkil olunan tədbirdə həmin idarənin əməkdaşları Nurlan Nuriyev, Ramil Mədətov və Xətai Məmmədli iştirak ediblər.

Yevlax Gömrük İdarəsinin əməkdaşı Nurlan Nuriyev Azərbaycan Respublikasının ümummilli lideri, Azərbaycan dövlətçiliyinin və müstəqilliyinin memarı Heydər Əliyevin gömrük işinin təşkil edilməsi sahəsindəki xidmətlərindən söhbət açıb. O, bildirib ki, məhz bu dahi şəxsin rəhbərliyi altında ölkəmizin milli gömrük siyasəti formalaşmış, onun qanunvericilik bazası yaradılmış, müasir avadanlıqlar və texniki vasitələrlə təchiz olunmuş, dünya standartlarına cavab verən gömrük sistemi təşkil olunmuşdur. Ümummilli lider Heydər Əliyev tərəfindən əsası qoyulmuş gömrük siyasətinin onun layiqli davamçısı, Azərbaycan Prezidenti İlham Əliyev tərəfindən çox uğurla həyata keçirildiyini vurğulamışdır.



Azərbaycan Gömrük Xidmətinin quru, hava və dəniz yollarında ölkənin iqtisadi mənafeyini və təhlükəsizliyini qoruduğu, qaçaqmalçılıq və gömrük qaydalarının pozulması hallarına qarşı qətiyyətlə mübarizə apardığı, dünyanın inkişaf etmiş ölkələrinin gömrük orqanları və aidiyyəti beynəlxalq təşkilatlarla qarşılıqlı faydalı əməkdaşlığın həyata keçirildiyi vurğulanıb.

İdarənin əməkdaşları Ramil Mədətov və Xətai Məmmədli gömrük işinin sənədləşdirilməsi, gömrük yüklərinin yoxlanılması prosedurları barədə tədbir iştirakçılarına məlumatlar vermişlər.

Tədbirin sonunda məktəbin rəhbərliyi bu kimi görüşlərin şagirdlərin dünyagörüşünün genişlənməsində, onların intellektual səviyyəsinin yüksəlməsində mühüm rol oynadığını bildirib və Yevlax Gömrük İdarəsinin əməkdaşlarına təşəkkür edib.

**✍ Vüsal SƏMƏDOV.**
**Səhrab Umuyev.**

# İcra nümayəndələri hesabat verir

Azərbaycan Respublikası Prezidentinin 6 iyun 2012-ci il tarixli 648 nömrəli Fərmanı ilə təsdiq edilmiş «Yerli icra hakimiyyətləri haqqında» Əsasnaməyə uyğun olaraq rayonun şəhər, qəsəbə və kənd inzibati ərazi dairələri üzrə nümayəndəliklərinin 2016-cı ildə görülmüş işlərlə və 2017-ci ildə qarşıda duran vəzifələrə dair hesabat yığıncaqlarının keçirilməsinə başlanılmışdır.

Yanvarın 9-dan bu günə kimi iyirmi inzibati ərazi nümayəndəliyində keçirilmiş hesabat yığıncaqlarında RİH başçısı yanında Şuranın üzvləri iştirak etmişlər.

Təsdiq olunmuş qrafik üzrə 30 yanvar 2017-ci il tarixdə başa çatması nəzərdə tutulan hesabat yığıncaqları hazırda davam edir.

**✍ Rasim ƏZİZOV,**
**RİH-nin ərazi idarəetmə və yerli özünüidarəetmə orqanlrı ilə iş şöbəsinin baş məsləhətçisi.**

# 11 yanvar Dünya Qoruqları və Milli Parklar Günüdir

Gözəlliklər diyarı olan Azərbaycanda ümumi 13 qoruq, 4 milli park və 17 yasaqlıq mövcuddur. Rayonumuzun əsrarəngiz təbiətinin bir hissəsini əhatə edən Şahdağ Milli Parkının ərazisi130 min hektardan çoxdur. Şahdağ Milli Parkı ölkəmizdə turizmin inkişafında xüsusi əhəmiyyət kəsb edən füsunkar guşələrdən biridir. Bu parkın yaradılmasında məqsəd nəsli kəsilməkdə olan ağac növlərinin və yüksək dağlıq ərazilərdə yerləşən otlaqlar ekosisteminin bərpası və idarə edilməsi torpağın münbit qatının saxlanması, ərazi üçün xarakterik olan fauna və flora növlərinin qorunmasü, artırılması və zənginləşdirilməsidir. Həmçinin böyük turizm potensialı olan ərazidə ekoturizmin inkişafının təmin edilməsi də vacib amillərdəndir

**«Qəbələ».**

# Nərd üzrə rayon birinciliyi

Qəbələ Rayon Gənclər və İdman İdarəsinin həyata keçirdiyi tədbirlər planına müvafiq olaraq 14 yanvar 2017-ci il tarixdə kişilər arasında nərd üzrə rayon birinciliyi keçirilib.

Birinciliyin keçirilməsində məqsəd nərd üzrə yarış iştirakçılarının idman ustalıqlarını artırmaq və təkmilləşdirilməsini təmin etmək, həmçinin rayonun yığma komandasının tərkibini müəyyənləşdirmək olub.

Rayon birinciliyində şəhər, qəsəbə, kənd və müxtəlif əmək kollektivlərini təmsil edən 40-dək nərd həvəskarı gərgin mübarizə aparmışdır.

Yarışın yekunlarına əsasən Vəndam qəsəbə sakinləri Abuzər Həşimov I yerə, Aslan Dəmirov II yerə və Qəbələ şəhər sakini Arif Nuralıyev III yerə layiq görülmüşlər.

Qaliblər rayon gənclər və idaman idarəsi tərəfindən müvafiq dərəcəli diplomlar və xatirə hədiyyələri ilə təltif olunmuşlar.

**✍ Elçin OSMANOV,**
**gənclər və idman idarəsinin aparıcı məsləhətçisi.**

# Fənn olimpiadalarının rayon mərhələsi keçirildi

***Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin müntəzəm diqqət və qayğısı ilə ölkəmizdə təhsilin maddi-texniki və tədris bazasının, bütövlükdə infrastrukturunun yenidənqurulması istiqamətində genişmiqyaslı böyük işlər görülmüşdür və bu proses uğurla davam etdirilir.***



Bu gün istedadlı uşaq və gənclərin üzə çıxarılması istiqamətində bir sıra işlər görülür. Fənn olimpiadalarının keçirilməsi bu baxımdan diqqət mərkəzindədir.

Fənn olimpiadalarının keçirilməsində əsas məqsəd şagirdlərin biliklərə marağını artırmaq, onlarda özünə inam hissələrini gücləndirmək, ayrı-ayrı fənlər üzrə istedadı və təfəkkürü ilə fərqlənənləri aşkar etməklə onların potensial imkanlarının inkişafını təşkil etmək istiqamətində tədbirlər müəyyənləşdirmək, məktəblilərin ixtisas və peşə seçiminə hazırlanması üçün zəmin yaratmaqdan ibarətdir.

Fənn olimpiadalarının yekunlarına görə şagirdlərin əldə etdiyi nəticələr müvafiq fənn müəllimlərinin, məktəbin, yerli təhsili idarəetmə orqanının fəaliyyətinin qiymətləndirilməsində əsas meyarlardan biri kimi nəzərə alınır.

Fənn olimpiadaları IX-XI sinif şagirdləri cəlb olunmaqla Azərbaycan dili və ədəbiyyatı, tarix, coğrafiya, riyaziyyat, fizika, kimya, biologiya, informatika fənləri üzrə təşkil edilir.

Respublikanın bütün bölgələrində olduğu kimi, rayonumuzda da fənn olimpiadalarının şəffaf, obyektiv və tələb olunan səviyyədə keçirilməsini təmin etmək üçün müvafiq hazırlıq işləri görülmüşdür.

2016-cı ilin noyabr ayında məktəblərdə fənn olimpiadaları keçirilmiş, uğurlu nəticələri ilə fərqlənən şagirdlər haqqında məlumatlar Təşkilat Komitəsinə təqdim edilmişdir.

Olimpiadalarda rayonun bütün məktəblərindən ümumilikdə 8 fənn üzrə 318 nəfər iştirak etmişdir.

Fənn olimpiadalarının rayon mərhələsi 15 yanvar 2017-ci il tarixdə şəhər 4 nömrəli tam orta məktəbdə keçirilmişdir. Bu mərhələdə suallar siniflər üzrə fənn olimpiadalarının münsiflər heyəti tərəfindən məktəb proqramına və əvvəlcədən təqdim edilmiş əlavə proqrama uyğun olaraq qapalı test formatında hazırlanmışdır.



Qeyri-ixtisas müəllimlərindən ibarət nəzarətçi müəllimlər imtahana nəzarətin istənilən keyfiyyətdə təşkili üçün təlimatlandırılmışdır.

İmtahan sualları 13 yanvar tarixində təhsil şöbəsinin əməkdaşı tərəfindən Təhsil Nazirliyindən elektron formada əldə edilmiş və çap olunaraq imtahan saatına qədər tam məxfi saxlanılmışdır.

İmtahanlara ayrılan vaxt fənnlərə görə fərqlidir. Azərbaycan dili və ədəbiyyatı, coğrafiya və tarix fənnləri üzrə 90 dəqiqə, riyaziyyat, fizika, kimya, biologiya və informatika fənləri üzrə 180 dəqiqə müəyyən edilmişdir.

İnformatika fənni üzrə olimpiadada iştirak edən şagirdlər əvvəlcədən internet saytında qeydiyyatdan keçmiş və imtahan günü birbaşa internet vasitəsilə imtahanda iştirak etmişlər.

Fənn olimpiadalarının rayon turunda şagirdlər daha çox Azərbaycan dili və ədəbiyyatı, riyaziyyat, tarix, coğrafiya fənlərindən iştirak etmişlər. Şəhər 1, 2, 3, 4, 5, Vəndam 1, Zarağan 1 nömrəli, Nohurqışlaq, Tüntül, Soltannuxa kənd tam orta məktəbləri daha fəal olmuşlar.

Olimpiadanın cavab kartları 16 yanvar 2017-ci il tarixdə Respublika Qiymətləndirmə Mərkəzinə təhvil verilmişdir.

Ümid edirik ki, əvvəlki illərdə olduğu kimi, bu il də şagirdlərimiz ilk mərhələdə rayonumuzu layiqincə təmsil edəcək, ən bilikli, hazırlıqlı, bacarıqlı, istedadlı şagirdlər növbəti mərhələ üçün seçiləcəklər.

**✍ Arifə BAYRAMOVA,**
**rayon təhsil şöbəsinin metodik kabinetin müdiri.**